# Ümumtürk ədəbi dilinin yaradılması niyə zəruridir və hansı qaydada yaradılmalıdır?

## Şapur Qasimi

**(əvvəli ötən sayımızda)**

***Mənim əsasən ümümtürk ədəbi dilinin yaradılmasına yönəli bu yazıma Yasəmən xanımın ilk baxışda ancaq dinə aid olduğu kimi görünən Əli Şəriətdən seçmələrinin tam mətnini daxil etməyim kimsəyə qəribə görünə bilər. Məsələ bundadır ki, bu ifadələrində Əli Şəriəti nəinki islamın şiə cəryanını, eləcə də ərəb, xristian və s. dinlərin də insanları, o cümlədən başqa millətləri din vasitəsilə ideoloji əsarət altına alaraq, zehinlərini qandallamaqla şəxsi və milli mənliyini qorumaq instiktindən məhrum etməklə öz inzibati əsarətinə almaq, həm də assimilyasiya etmək üçün siyasi-ideoloji silah olduğunu çox aydın şəkildə ortaya qoymuş olur.***

Bundan başqa islam, o cümlədən şiə cərəyanı, hətta Tehranın – molla rejiminin teokratik əsaslarda düzənlənmiş anayasasında belə "millət" anlayışını qəbul edilmədiyi halda, o ərəb islamı ilə fars islamının mübarizəsinin fəlsəfi mübarizə deyil, məhz ərəb-fars milli mübarizəsi olduğunu daim vurğulayır. Milli mübarizə isə ilk növbədə dil mübarizəsidir. Belə ki, dilsiz millət, millətsiz isə dil anlayışı mövcud deyil. Yəni, dil və millət eyni bir medalın iki üzüdür. Din isə hər bir millətə öz dilinə biganə münasibət aşılamaq, onda milli mənlik hissini, düşüncəsini məhv etmək üçün ən təsirli vasitədir. Hər hansı bir millət assimilyasiya prosessinə fəal müqavimət göstərdiyi halda isə əlavə olaraq Tehran rejimi kimi ən vəhşi inzibati, terror vasitələri tətbiq edilir. Onun seçmələrinin 11-ci bəndində, – "Biz İranda hökmranlıq etmiş türk xanədanını kriter olaraq almırıq. Dövlətin başında duran sülalənin kim olması önəmli deyil", – sözləri isə 651-ci ildən 1926-cı ilədək 1247 il bu ərazilərdə hökmranlıq etmiş milli mənlik şüuru olmayan türk hökmdarlarının zehnini din vasitəsilə qandallayaraq, öz milli hədəflərinə ximdət etdirməyə nail olduqlarını bildirir.

Nəticə bu gün göz qabağındadır. Erməni ilə eyni eybəcər xüsusiyyətlərə, yaltaqlığa, hiyləgərliyə, xəyanətə, məişət və siyasi fahişəliyə malik olması ilə fərqlənən fars şovinizmi ingilislərin və rusların köməyi ilə Qacar xanədanını devrdiyi gündən ötən 97 il ərzində İranda aborigen millət olan 52,2 milyondan çox türkü bəşər tarixində misli görünməmiş vəhşi qadağa, terror vasitəsilə farslaşdırmağa, yəni ilk növbədə onu TÜRK EDƏN türk dilini onun zehnindən çıxarmaqla türkü özünə yadlaşdırmağa çalışır. Din yarandığı gündən siyasətbazların əlində başqa insanları, millətləri özünə qul etmək üçün ən səmərəli siyasi-ideoloji vasitədir. Məhz bu amil məni Əli Şəriətinin deyimlərindən olan seçmələri bu məqaləyə daxil etməyə məcbur etdi. Çünki, dinin başqa insnaların, millətlərin şüurunu qandallayaraq, ilk növbədə onların milliyyətini müəyyən edən həlledici əsas olan, dilinə edilən təcavüz Əli Şəriətinin bu etiraflarında o qədər aydın görünür ki, bunu başa düşməmək üçün insanın şüuru ən küt heyvan şüurundan da aşağı səviyyədə olmalıdır. Bu həm də ərəb, fars və s. dillərdən yetərincə çoxsaylı nümunələr olub, bu millətlərin dillərinin inkişafına, təbliğatına, geniş yayılmasına xidmət edən məhəlli türk dialektlərindən bərk yapışıb, onu doğma dili hesab edərək türkün vahid monolit, millət və dövlətə çevrilməsinə ölümcül zərbə vurduqlarını dərk etmək üçün asanlıqla başa düşülməsinə imkan verən əyani vasitədir. Türk şahları və sultanlarının cəngavər, cəsur olması ilə yanaşı milli şüurunun olmamasının nəticəsidir ki, Toxtamışın Əmir Teymurla müharibəsində türkün zəifləməsindən sonra rus dövləti yaranıb, güclənib, türkün özünü və torpaqlarını əsir almaqla bu gün türkə "osyol Karabaxskiy", Şah İsmayılın Sultan Səlimlə müharibəsində zəifləyən Səfəvilərdən sonra güclənmiş Rusiya ilə müharibdə tamamilə taqətdən düşən Qacarları devirib,yurdunda fars şovinist dövləti quranlar bu gün türkə "torkexər" deyir.



Bu gün türk dünyasının ən güclü dövləti olan Türkiyədə 197 min 379 məscid, 199 min dini məmur, 4 milyon dini tədris və təbliğ edən mollamüəllimlər, 81 şəhərdə isə ümummilikdə quran əzbərləməyi öyrədən 3852 kurs var. Harada yaşamasından asılı olmayaraq bütün türk soy və boyları böyük Atatürkün, – "Biz 20-ci əsrdə texnologiyalar dövründə yaşayırıq, əncir və zeytun barədə danışan kitabın (Quran nəzərdə tutulur – Ş.Q.) arxasınca gedə bilmərik", "Cəhalət məğlub edilməsi zəruri olan ən böyük düşməndir", "Sizə səslənirəm, unutmayın ki, ən böyük savaş, cəhalətə və geriliyə qarşı aparılan savaşdır" sözlərini, İngiltərənin keçmiş baş naziri Uinston Çörçilin, – "türkləri qoşunla, silahla, müharibə etməklə əsla məğlub edə bilməzsiniz. Sadəcə olaraq onların din adamlarını ələ alıb, onlarla iş görün", sözünü, eləcə də, ümumiyyətlə bütün dinlərin fəlsəfi dünyagörüşü deyil başqaları üzərində hökmüranlıq etmək üçün siyasi-ideoloji silah olduğunu Fransa imperatoru Napoleon özünün "Generalın gündəliyi"ndə belə ifadə etmişdir, – "İsus öldükdən sonra Romada olan siyasi qruplaşma dinin xalqı idarə etmək üçün bir vasitə olduğunu gördü. Beləliklə onlar İsusu allah dərəcəsinə qadırdılar və o allahın özünün bir hissəsinə çevrildi" sözlərini unutmamalıdır. Çünki, milli mənliyimizi, milli şüurumuzu, bizi türk milləti edən dilimizi düşmənlərimizin bizim özümüzün, öz alimizlə məhv etdirməyə yönəltdiyi iki ən qorxulu amil, dilimizə yad sözlərin, və din vasitəsilə milli şüurumuzu keyləşdirərək, dilimizə həm də heç bir real əsası olmayan dini söz və terminlərin yrləşdirilməsidir ki, Ümumtürk Ədəbi Dili yaradılarkən türk dili bu naqisliklərdən tam təmizlənməlidir.

Həm də bunlardan təkcə nəticə çıxarmaq yetərli deyil. Çıxarılan nəticənin davamı olaraq daldıqları sükunət halına nöqtə qoyaraq, bu istiqamətdə fəal hərəkətə keçməlidirlər. HƏRƏKƏT MATERİYANIN MÖVCUDLUQ FORMASIDIR. Fəlsəfə elminin bu qanununu nəinki alimlərimizin hamısı, hətta fəlsəfə elminə səthi bələd olanlar da yaxşı bilir. O ki, qaldı onların bu sahədə səmərəli fəaliyyətinin təşkilati və maddi cəhətdən dövlətin təmin etməsinə, Nəsimi adına Dilçilik İnstitutunun və Azərbaycan Elmlər Akademiyası Rəhbəri tərəfindən dövlət başçısına bu barədə əsaslandırılmış iş planının təqdim edilməsi yəqin ki, yetərli olar. Ötən 30 ildə millətə qarşı törədilən iri miqyaslı terror və düşmənçiliyin əsas təşkilatçısı, millətin boğazına sarılan əfi ilan kimi Azərbaycan dövlətçiliyini uçuruma sürükləyən BOZ KARDİNALIN nəinki dövlətin, hətta Azərbaycan elminin boğazından ayırıb zərərsizləşdirildiyindən "Ümumtürk Ədəbi Dilinin Yaradılması, tədrisi haqqında" prezident sərəncamının imzalanmasını çox gözləməli olmayacağıq.

***Əgər bu baş verməzsə onda, özünü müxalifət adlandırıb əhalini cılız məqsədlərlə küçələrə çıxaranlar "Ümumtürk Ədəbi Dili yaradılsın" şüarı ilə nəhəng dinc nümayişlər təşkil etməsi, nəinki, əzilənlərin, hətta əzənlərin belə şəxsi və milli maraqlarının özülü olan, bu fövqəladə strateji, həm də həll edilməsi mümkün olan milli məsələnin reallaşdırılması onların millət qarşısında önəmli xidməti olardı. Əmir Teymur Tus şəhərinə girdikdə ayağını fars şovinisti Firdovsinin qəbrinin üstünə qoyub, – «Dur ayağa! Mən sənin aşağıladığın TÜRKƏM, gəlmişəm», – deyib. İndi isə ayağını İstambulda əzizlənən erməni dığasının qəbri üstünə qoyub, – «Dur ayağa! Mən yad sözlərin qarışığını sırıdığın TÜRKƏM, dilimi arıdıb, duruldub gəlmişəm», – demək növbəsi səninindir, türk dilinin ƏMİR TEYMURU! Mən də bu məsələ barədə az da olsa ürəyimi boşaltdım. İndi meydan və söz sizindir, cənab DİLÇİ ALİMLƏR və özünü MİLLƏTİN ZİYALILARI, ÖNDƏRLƏRİ HESAB EDƏNLƏR.***